# ELEKTRON KİTABXANALARDA MÜLTİKULTURALİZMİN TƏBLİĞİ

**Həbib Əlizadə**

*BDU, Kitabxanaşünaslıq kafedrasının dissertantı*

Azərbaycanda multikulturalizmin qorunub saxlanması, inkişaf etdirilməsi və təbliğ olunmasında kitabxanaların özünəməxsus rolu vardır. Kitabxanalar həmişə milliyyətindən, dinindən, dilindən asılı olmayaraq çoxsaylı oxucu kontingentinə xidmət göstərir, müxtəlif xalqların etiqadını, mədəniyyətini, düşüncə tərzini, məişət və əxlaqını ədəbiyyatın ən gözəl nümunələri vasitəsilə təbliğ edirlər. Əlbəttə ki, kitabxanaların malik olduğu potensial, yəni müxtəlif mədəniyyətlərə dair bilik və məlumatları özündə əks edən kitabların, dövrü mətbuat nəşrlərinin bir yerdə cəmlənməsi, müxtəlif dünyagörüşü və etnik, milli, dini mənşəyə malik olan insanların bir araya gəlməsi onların rolunu daha da artırmışdır. Müxtəlif mədəniyyətlərə dair kitab və məlumatların, onlarla maraqlanan oxucuların bir araya gəlməsi özlüyündə bir multikultural mühit yaradır, bu mühitin potensialından müxtəlif istiqamətdə yararlanmaq isə kitabxanaların üzərinə düşür. Buna görə də belə bir şəraitdə müxtəlif kitab sərgiləri, təqdimatları, müxtəlif mövzularla bağlı müzakirələrin təşkil olunması multikulturalizmin təbliği işində çox səmərəlidir. Qeyd etmək lazımdır ki, kitabxanalardakı mövcud mühit müxtəlif dünyagörüşlü insanların, şəxslərin sosiallaşdığı, ünsiyyət və təmasda olduğu bir mühit kimi qiymətləndirilir. Kitabxanalarda multikulturalizmin təbliği və təşviqinin təmin edilməsi üçün bir sıra mühüm işlər görülmüşdür. İlk növbədə kitabxanalarda multikulturalizm üzrə kitab fondunun yaradılması, multikulturalizmlə bağlı müxtəlif nəşrlərdən ibarət resursların bir yerdə cəmləşdirilməsi nəzərdə tutulmuşdur. Multikulturalizmin təbliği və təşviqi işində, eləcə də əhali arasında maarifləndirmə tədbirlərinin miqyasının genişləndirilməsində elektron resurslardan, virtual imkanlardan geniş istifadə edilir. Hal-hazırda mövcud aləm bütövlükdə virtual mühitə köçürülməkdədir. Buna görə də belə bir şəraitdə multikulturalizmin təbliği sahəsində görülən işlərin dəqiq və operativ şəkildə həyata keçirilməsi, etibarlı saxlanılması istiqamətində elektron kitabxanaların potensialı çox böyükdür. Son illərdə multikulturalizm barədə geniş məlumatların, dini mövzuda elmi əsər və məqalələrdən ibarət elektron topluların hazırlanması və elektron kitabxanalarda, sosial şəbəkələrdə yayımı təşkil edilmişdir. Elektron nəşrləri, elektron kitabları qlobal şəbəkədə yerləşdirməklə, bu barədə geniş məlumatlar yaymaqla zəngin dini-elmi, ədəbi-mədəni dəyər-

lərimizin ölkədə və dünyada tanıdılmasına, virtual təbliğinə şərait yaranır. Buna görə də, multikulturalizmin təbliğində elektron resurslardan istifadə, eləcə də elektron kitabxanaların potensialından bəhrələnmək, bu istiqamətə xüsusi diqqətin ayrılması müasir dövrdə kitabxanaların qarşısında duran əsas tələbdir. Bu sahədəki işlər kitabxanalarda kompleks və mərhələli şəkildə həyata keçirilir. Birinci növbədə multikulturalizmə dair bütün növ kitab, albom, məqalə, tezis və s. elektron bazası formalaşdırılır, materiallar mövzu və məzmuna uyğun olaraq qruplaşdırılır və virtual mühitdə, internetdə axtarışını və əldə olunmasını təmin etmək üçün müəyyən açar sözlərlə işarələnir. Həmçinin elektron kitabxanalar daxilində multikulturalizmə dair müəyyən mövzu panelləri və başlıqlar yaratmaq üçün müzakirələr təşkil edilir. Eyni zamanda audio, video və multimedia resursları da elektron kitabxana mühitinə yerləşdirilir və bunlardan da maarifləndirmə işində təbliğat vasitəsi kimi istifadə edilir. Elektron kitabxanaların bazasında mövcud olan ən mühüm imkanlardan biri də fotomaterialların yerləşdirilməsi, başqa sözlə desək, virtual sərgilərin təşkil edilməsidir. Bu mənada Azərbaycanın multikultural bölgələrinin həyat tərzinə, adət-ənənə və etnoqrafiyasına dair fotomateriallardan elektron resurs kimi geniş şəkildə istifadə edilir. Elektron kitabxanaların bazasında mövcud olan özəlliklərindən biri də elektron baza ilə istifadəçilər arasında qarşılıqlı əlaqələrin, kommunikasiyaların qurulmasıdır. Həmçinin elektron kitabxana daxilində onlayn-virtual müzakirə şəraiti təşkil edilir ki, bununla da istifadəçi ilə kitabxana arasında və istifadəçilərin öz aralarında diskussiya imkanları yaranır. Multikulturalizm bu gün Azərbaycanda gedən demokratik proseslərin ayrılmaz tərkib hissəsidir. Bu sahədə həyata keçirilən tədbirlər isə ölkəmizdə multikultural cəmiyyətin intellektual göstəricilərinin formalaşdığını təsdiqləyir. Buna görə də, müasir dövrdə qloballaşan dünyada multikulturalizmin təbliği işində informasiya kommunikasiya texnologiyalarının bəxş etdiyi imkanlardan istifadə edərək elektron kitabxanaların potensialını daha da artırmaq, bu sahədə görülən işlərin səmərəliliyini və keyfiyyətini yüksəltmək lazımdır.